# Şəxsiyyətin inkişafının hərəkətverici qüvvələri

**Zenfira İlyas qızı Səlimova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*"Pedaqoji psixologiya" kafedrasının*
*baş müəllimi*
**E-mail:** zenfira_selimova@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos.S.İ. Heydərova,
psixol.ü.f.d., dos.Q.V. Rəhimova

**Açar sözlər:** şəxsiyyət, biososioloji, irsiyyət, mühit, tələbat, fəallıq
**Ключевые слова:** личность, биосоциология, наследственность, среда, потребность, активность
**Key words:** personality, biosociological, heredity, environment, demand, activity

İnsan dünyaya fərd kimi gələrək şəxsiyyətə çevrilir və bu proses tarixi xarakter daşıyır. Fərd tarixən əmələ gəlmiş müəyyən ictimai münasibətlər sisteminə hələ ilkin uşaqlıq dövründə daxil olur. O, həmin münasibətlərə hazır şəkildə təsadüf edir. İnsanın sosial qrup daxilindəki sonrakı inkişafı münasibətlərin elə şəbəkəsini yaradır ki. Bu da onu şəxsiyyət kimi formalaşdırır.

Lakin şəxsiyyəti sosial mühitin yalnız passiv məhsulu kimi şərh etmək və şəxsiyyətdə fəal xadim görməmək düzgün olmazdı. Şəxsiyyətin cocial təcrübəni mənimsəməməsi prosesi onun daxili aləmi vasitəsi ilə həyata keçirilir. İnsanın özünün nə etdiyinə və onunla mə edildiyinə münasibəti də bunda ifadə edilir. Fəallıq şəxsiyyət üçün xarakterik olan davranış motivlərində, məqsədlərdə və iş tərzlərində, geniş mənada desək, ətraf mühitin dəyişilməsinə yönəlmiş çoxcəhətli fəaiyyətdə təzahür edir. Şəxsiyyətin fəallığı öz ifadəsini həyatda vəziyyətini və yerini dərk edən insanın tutduğu həyat mövqeyində tapır.

Şəxsiyyətin ən xarakterik cəhətlərindən biri onun fərdiyyətidir. Şəxsiyyətin fərdiyyəti dedikdə insanın psixoloji xüsusiyyətlərinin təkrarolunmaz uzlaşması başa düşülür. Buraya xarakter, temperament, psixi proseslərin cərəyanetmə xüsusiyyətləri, üstünlük təşkil edən hisslərin və fəaliyyət motivlərinin məcmuyu, formalaşmış qabiliyyətlər daxildir. Buna görə də şəxsiyyət, hər şeydən əvvəl, özünün cəmiyyətin həyatında fəal iştirak etmək, tərbiyə və təlim nəticəsində əmələ gələn bütün ləyaqəti və nöqsanları, güclü və zəif cəhətləri ilə birlikdə canlı konkret adamdır. Psixoloji baxımından gənclər artıq öz "mən"ini, şəxsiyyətini, qüvvəsini, xarici gözəlliyini dərk edir; gümrah, cəsarətli, inamlı olub həyata nikbincəsinə yanaşır, onlarda həyat sevinci, peşə seçmə imkanları, yaşamaq-yaratmaq eşqi özünü daha qabarıq surətdə büruzə verir; idrak fəaliyyəti öz əhatəliliyini, dünyagörüşü isə bir qədər genişliyilə fərqlənir.

Gəncliyin psixiseksual aspektdə inkişafına gəldikdə, burada cinsi yetişmənin əsasən tamamlanması, ikinci və üçüncü cinsi əlamətlərə keçid mərkəzi problem olub mürəkkəb biososial hadisə kimi özünü göstərir. Bu, əlbəttə heç də bioloji-fizioloji dəyişmələrin nəticəsi olmayıb, həm o bioloji və sosial qüvvəllərin qarşılıqlı təsirinin məhsuludur. Kişi və qadın olmaq, həmin rolu mənimsəmək, ailə həyatı qurmaq, məhəbbət, qadın şərəfini, kişi ləyaqətini qorumaq gənclik yaşında özünü büruzə verən yeni keyfiyyətlərdəndir. Beləliklə, psixoseksual davranışlar, cinsi həvəs, əks cinsə münasibətin dərk olunması, əxlaqi normalardır, ailə münasibətlərində fərdi xüsusiyyətlərin qanunauyğun təşəkkülü gəncliyin inkişafının müəyyən mərhələ-

sini təşkil edir.

Sosioloji aspektdə isə gənclik öz mahiyyəti etibarilə sosiolojiləşmiş müstəqil və məsuliyyətli fəaliyyətə keçir, gəncin şəxsiyyətinin fərdi-psixoloji mahiyyəti ictimai münasibətlərdən nəşət edir, başqa sözlə desək, o, ictimai münasibətlərin məcmuyu kimi, sosioloji varlıq kimi yetişir, həyat hadisələrinə fəal mövqedən yanaşır. Gənclik dövründə məktəblilər cəmiyyətdə, kollektivdə, ailədə özünəməxsus yer tutur, onların əsas fəaliyyət növü əmək və təlim olur. Böyük məktəblilərin bir qismi texniki peşə məktəblərində, kolleclərdə təhsilini davam etdirir, bu dövrün sonunda bir qismi istehsalata işləməyə gedir, onlarda fəhlə əməyinə, fəhlə şərəfinə meyl əmələ gəlir; müəyyən hissəsi ali məktəblərə daxil olur.

Müasir psixoloji təsəvvürlərə görə insan özünü tənzimedən və özünü təkmilləşdirən sistemdir. Hər bir sistemin mühüm bir xüsusiyyəti vardır: o bir qayda olaraq, özünün sabitliyini saxlamağa cəhd göstərir. İnkişaf ümumiyyətlə canlı varlıqlara xas olub, hərəkət, tərəqqi və yaradıcılıqla səciyyələnir. İnsan dünyaya gəldiyi gündən inkişaf edərək keyfiyyətcə bir-birindən fərqlənən anatomik, fizioloji, psixoloji və sosial dəyişikliklərlə səciyyələnir. İnkişaf insan orqanizmində kəmiyyət və keyfiyyətin dəyişiklikləridir. İnkişaf nəticəsində insan bioloji növ və sosial vücud kimi təşəkkül tapır və inkişaf edir. İnsanın bioloji inkişafı onun fiziki inkişafı ilə xarakterizə olunur. Fiziki inkişafa morfoloji, biokimyəvi və fizioloji inkişaf daxildir. Sosial inkişaf isə özünü insanın psixi, mənəvi intellektual inkişafında təzahür etdirir. Pedaqogika və psixologiya şəxsiyyətin inkişafı ilə bağlı üç əsas istiqamət (bioloji, sosioloji, biososioloji) vardır.

— Bioloji istiqamətin nümayəndələri şəxsiyyəti sırf təbii varlıq hesab etməklə onun bütün davranışını anadan olarkən özü ilə gətirdiyi, ona xas olan tələbatların, maraqların, instinktlərin təsiri ilə izah edirlər.

— Sosioloji istiqamətin nümayəndələri insanın bioloji varlıq kimi doğulmasını qəbul etməklə yanaşı, ünsiyyətdə olduğu sosial qrupların təsiri ilə tədricən sosiallaşması fikrini müdafiə edirlər.

— Biososial istiqamətin nümayəndələrinin fikrincə, psixi proseslərin (duyğu, qavrayış, təfəkkür və s.) bioloji təbiəti olsa da, şəxsiyyətin təcrübəsi, siyasi, əxlaqi-mənəvi baxışları, maraqları, qabiliyyətləri və s. sosial hadisələr kimi formalaşır.

Müasir pedaqogika şəxsiyyətə bioloji və sosioloji xüsusiyyətləri ayırmayan tam bir psixi sistem kimi baxır. Şəxsiyyət ictimai həyatın məhsulu olmaqla həm də canlı orqanizmdir. Şəxsiyyətin formalaşması və davranışında sosioloji və biolojinin münasibəti olduqca mürəkkəbdir və insanın inkişafının müxtəlif dövrlərində şəxsiyyətə eyni təsir göstərmir.

Şəxsiyyətin bütün tərəfləri yalnız fəaliyyətdə və başqa adamlarla ünsiyyətdə təzahür edir. Təlim, təhsil-tərbiyə prosesində köhnə ilə yeni arasında meydana çıxan ziddiyyətlər və onların aradan qaldırılması şəxsiyyətin inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edir. Fəaliyyətin doğurduğu yeni tələbatlar ilə onların ödənilməsi imkanları arasındakı ziddiyyətlər buna misal ola bilər. Ziddiyyətlərin həlli daha yüksək səviyyəli fəaliyyəti formalaşdırmaq vasitəsilə baş verir. Nəticədə uşaq öz inkişafında daha yüksək pilləyə qalxır. Tələbat ödənilir, ziddiyyət aradan götürülür.

İnsanın inkişafı və onun şəxsiyyət kimi formalaşması üç başlıca amilin- mühit, irsiyyət və təhsil-tərbiyənin qarşılıqlı təsiri ilə həyata keçirilir. Yeni elmi ədəbiyyatda fəaliyyət də bir amil kimi göstərilir. Mühit özü iki yerə bölünür: 1) Qeyri-mütəşəkkil mühit; 2) Mütəşəkkil mühit.

Təhsil-tərbiyə amili mütəşəkkil mühitə aiddir, onu ümumi mühitdən kənardada təsəvvür etmək mümkün deyil, çünki o, onun tərkib hissəsidir.

İrsiyyət dedikdə, valideynlərdən uşaqlara müəyyən keyfiyyət və xüsusiyyətlərin irsən keçməsi başa düşülür. İrsiyyətin daşıyıcısı genlərdir. Müasir elm sübut etmişdir ki, orqanizmin xassələri gen kodunda şifrələnmişdir. Orqanizmin xassələri haqqında bütün informasiyalar məhz orada toplanmışdır. Valideynlərdən uşaqlara həm fiziki əlamətlər (bədən quruluşunun xüsusiyyətləri, saçın, gözün və dərinin rəngi və s.) həm də fizioloji əlamətlər (ali sinir sisteminin xüsusiyyətləri, psixi pozğunluqları yardan patoloji qüsurlar və s.) irsən keçir.

İnsanın inkişafına mühitin yoxsa irsiyyətin daha çox təsir göstərməsi ilə bağlı tədqiqatçılar arasında vahid fikir yoxdur. Biogenetiklər irsiyyət amilinə, sosiogenetiklər isə mühit amilinə üstünlük verirlər. Bəzi tədqiqatçılar isə şəxsiyyətin inkişafına mühit və irsiyyətin təsirinin dəqiq kəmiyyət nisbətini müəyyən etməyə cəhd göstərmişlər. Tərbiyə insanın inkişafına təsir göstərsə də, özü də müəyyən mənada inkişafdan asılıdır və insanın inkişaf səviyyəsinə əsaslanır. İnkişaf ilə tərbiyə arasında qarşılıqlı münasibətlərin dialektikası da özünü məhz bunda göstərir. Tərbiyənin səmərəsi isə insanın tərbiyəvi təsiri qəbul etməyə hazırlıq səviyyəsi ilə müəyyən olunur ki, bu da irsiyyət və mühitin təsirindən bilavasitə asılıdır.

Mühit və təhsil-tərbiyə amilləri dinamik, hərəkətdə və inkişafda olan amillərdir. İnsan həm mühitdə, həm də təhsil tərbiyə prosesində fəaliyyətə cəlb olunur. Burada isə fəaliyyətə inkişafın amili kimi ayrıca baxılır. İnsanın bir şəxsiyyət kimi inkişafının şərti onun yerinə yetirdiyi çoxplanlı fəaliyyətidir. Cəmiyyətin tələbatına, dövlətin sosial sifarişinə uyğun şəxsiyyət formalaşdırmaq üçün fəaliyyəti təşkil etmək və onu düzgün istiqamətləndirmək lazımdır. Təlim, təhsil-tərbiyə işinin ən böyük çətinliyi məhz bundadır. Təəssüf ki, bir çox hallarda təhsil-tərbiyə şagirdlərin inkişafı üçün imkanlar yarada bilmir.

Şəxsiyyətin formalaşdırmağın mühüm və əsas tərkib hissələrindən bir də əqli təhsil və bu əsasda elmi dünyagörüş formalaşdırılmasıdır. Əqli təhsil vasitəsilə insanlar təbii və ictimai hadisələrin baş vermə qanunauyğunluqlarını dərk edirlər. Onların beynində maddi aləmin, obyektiv gerçəkliyin elmi mənzərəsi yaradılır. Bu yolla insanlara təbiət, cəmiyyət və insan təfəkkürü haqqında zəruri biliklər verilir. Bu biliklər istehsal prosesi ilə əlaqəndirilir.

Elmi məlumatlara yiyələnmiş hər bir adam quruculuq işində daha fəal iştirak edir, öz fəaliyyətini elmi əsaslar üzərində qurmağa çalışır, yaradıcılıq göstərir. Bu həmçinin müasir mürəkkəb istehsal prosesinin, inkişaf etmiş sənayeyə əsaslanan cəmiyyətin öz vətəndaşlarına verdiyi tələblərdir. Yəni cəmiyyət əqli təhsil qarşısında mövcud sənayeni idarə edə biləcək, xalq təsərrüfatının müxtəlif sahələrində çalışa biləcək yüksək intellektual səviyyəyə malik şəxsiyyətlər yetişdirmək tələbi qoymuşdur.

**Məqalənin aktuallığı.** Məqalədə şəxsiyyətin fərdi tipoloji xüsusiyyətlərinin fəaliyyət və ünsiyyət prosesində öyrənilməsinin zəruriliyi və aktuallığı qeyd edilmişdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə şəxsiyyətin hərəkətverici qüvvələri, onun xarakterik cəhətləri, insanın psixoloji aspektdə inkişaf dinamikası araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, "Çinar-çap" NP mətbəəsi, 2009, 620 s.

2. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya. Bakı.: ADPU-nun nəşr., 2010, 600 s.

3. Əliyev B.H., Əliyeva K. R., Cabbarov R.V. Pedaqoji psixologiya. B.: Təhsil, 2011, 256 s.

**З.И. Салимова**

## Движущие силы развития личности

### Резюме

В статье автор отмечает, что активизм проявляется в поведенческих мотивах, целях и способах деятельности, свойственных личности, в широком смысле, в многогранной деятельности, направленной на изменение окружающей среды. Активность личности находит свое выражение в жизненной позиции человека, понимающего свое положение и место в жизни. Личность - это, прежде всего, живой конкретный человек со всеми его достоинствами и недостатками, достоинствами и недостатками, сформировавшийся в результате его активного участия в жизни общества, воспитания и обучения.

**Z.I. Salimova**

## The driving forces of personality development

### Summary

In the article, the author notes that activism is manifested in behavioral motives, goals and methods of activity characteristic of the individual, in a broad sense, in multifaceted activities aimed at changing the environment. The activity of the individual finds its expression in the life position of a person who understands his position and place in life. A personality is, first of all, a living concrete person with all his advantages and disadvantages, advantages and disadvantages, formed as a result of his active participation in the life of society, education and training.

**Redaksiyaya daxil olub:** 07.09.2022